# Yeni tədris iliniz mübarək!


Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 09 (1432) 15 sentyabr 2012-ci il


## Rektorun müraciəti
səh. 2

## Yüksək bal toplayan tələbələrimiz
səh. 3

## Koreyanın səfiri ilə görüş
səh. 2

## Anadolu Universitetilə əməkdaşlıq
səh. 2

## Yeni laboratoriya açılıb
səh. 2

## Rektor Abel Məhərrəmovun açıqlamaları
səh. 3

## Universitet yenilikləri
səh. 7

## İlk astrofizik alim və müəllim
səh. 6

## Tələbə yaradıcılığı
səh. 7

# Təhsil millətin gələcəyidir!

*Heydər Əliyev*



səh. 3

## BDU-da əsas hadisələr
səh. 7

## Tələbə adını qazandıq
## Bəs sonra?



səh. 5

## REKTORLARIMIZ
səh. 4

## Tələbə adının məsuliyyəti...
səh. 8

## Universitetlər arası əməkdaşlıq proqramı imzalanıb
səh. 7

## MARAQLIDIR...
səh. 8

# Bilik günü münasibətilə rektor akademik Abel Məhərrəmovun müraciəti




***Əziz I kurs tələbəsi!***

Səni tələbə adını qazanmağın münasibətilə təbrik edirəm! Sənin üçün ikiqat şərəfdir ki, xalqımızın mənəvi böyüklüyünün simvolu, elm, təhsil və mədəniyyətimizin möhtəşəm məbədi olan Bakı Dövlət Universitetinin tələbəsi olmusan! Vaxtı ilə bu universitetin tələbəsi və məzunu olmuş ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı BDU ölkəmizin ilk univeristeti kimi milli universitet missiyasını Azərbaycanda şərəflə yerinə yetirir. Bakı Dövlət Universiteti Azərbaycan Milli Elmlər Akademiyasının və bir neçə ali təhsil müəssisəsinin (Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və s.) yaradılmasında mühüm xidmətlər göstərmişdir. Bununla yanaşı, Bakı Dövlət Universitetində Azərbaycanda elmi məktəblərin formalaşmasında, fundamental elm sahələrinin əsaslı inkişafında əvəzsiz rolu olan onlarla dəyərli alim yetişmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bütün ölkəmiz kimi Bakı Dövlət Universiteti də sürətlə inkişaf edir. Respublika alimlərinin xeyli hissəsinin cəmləşdiyi Bakı Dövlət Universitetinin 17 fakültəsində 300-dək elmlər doktoru, professor, o cümlədən 22 nəfər AMEA-nın həqiqi və müxbir üzvü, 900-ə yaxın elmlər namizədi, dosent 20 minə yaxın tələbənin təlim-tərbiyəsi ilə məşğul olur. Bunlardan, təqribən 150 nəfəri dövlətin ali mükafatlarına layiq görülmüş, 30 nəfərə qədəri Əməkdar elm xadimi, 4 nəfəri Dövlət mükafatı laureatı, 20 nəfərə yaxını Prezident təqaüdçüsü, 13 nəfəri Milli Məclisin deputatıdır.

Respublikanın ictimai həyatında olduqca mühüm rol oynayan 150 minə yaxın məzunu olmuş Bakı Dövlət Universitetinin tələbələri sırasına qatılmağında rolu olan bütün insanları, ilk növbədə valideynlərini, müəllimlərini bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Əminəm ki, sən onların etimadını doğruldacaq, elmin çətin yollarını inamla irəliləyəcək, regionun ən qədim və ən böyük universitetinin tələbəsi olmaq məsuliyyətini düzgün dərk edərək xalqımızın ləyaqətli övladlarından birinə çevrilməyi bacaracaqsan.

***Bu çətin və şərəfli yolda sənə uğurlar arzulayıram!***

# Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzi

**Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzinin yenidənqurmadan sonrakı açılış mərasimi keçirilib.** Açılış mərasimində çıxış edən rektor akademik Abel Məhərrəmov və Koreya Respublikasının Dövlət İdarəçiliyi və Təhlükəsizlik Nazirinin müavini cənab Seo Pil Eon çıxış edib. Rektor 2008-ci ilin dekabrın 17-də açılmış Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzinin Azərbaycan Dövləti ilə Cənubi Koreya Dövlətinin dostluğunun bir rəmzi olduğunu deyib. Mərkəz haqqında tədbir iştirakçılarına məlumat verən rektor, 3 otaqdan ibarət olan Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzində Seminar otağı, İnformasiya - Kommunikasiya Texnologiyaları üzrə Treninq Laboratoriyası və İnternet zalının fəaliyyət göstərdiyini vurğulayıb. O, bildirib ki, İnformasiya Kommunikasiya Texnologiyaları üzrə Treninq Laboratoriyası 75 ədəd kompyuter və iki genişekranlı proyektor ilə təchiz olunub. İnternet zalı isə öz növbəsində tələbələrin və tədqiqatla məşğul olan şəxslərin internet vasitəsilə lazımi məlumatları əldə etmələri məqsədilə istifadəyə verilib. Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzində Beynəlxalq konfranslar və seminarlar keçirilir. O cümlədən, BMT tərəfindən maliyyələşdirilən Beynəlxalq İqtisadiyyat Universiteti ildə bir dəfə bir həftəlik İqtisadiyyat üzrə Beynəlxalq konfransı bu mərkəzdə keçirir. Eyni zamanda, mərkəzdə Rusiyadan, Ukraynadan, Türkiyədən və s. dəvət olunan alimlərin də seminarları təşkil olunur. Bunlarla yanaşı hər həftə proqramlaşdırma dillərinə və İnternet texnologiyalarına daha mükəmməl yiyələnmək üçün bu mərkəzdə tələbələrin və müəllimlərin seminarları keçirilir. Həmçinin Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzində elmi ad almaq üçün dissertant və doktorantların müdafiəsi də təşkil olunur və onlar müdafiə zamanı müasir kompyuter avadanlıqlarından istifadə edirlər.

Qeyd edək ki, yenidənqurulmadan sonra mərkəz 30 ən müasir kompyuterlə təmin olunub. Təmir və təchizat işləri isə əvəzsiz olaraq (BDU tərəfindən vəsait ödənilmədən) həyata keçirilib.

Öz çıxışında cənab Seo Pil Eon Azərbaycanın ən nüfuzlu universiteti olan Bakı Dövlət Universitetində Azərbaycan-Koreya İnformasiya təminatı Mərkəzinin yenidənqurulmadan sonrakı açılış mərasimində iştirakından qürur duyduğunu deyib. Qonaq bu mərkəzin Azərbaycanın informasiya texnologiyaları sahəsində inkişafına dəstək verəcəyini bildirib.

# Universitetdə "Yunus Emre Türk Mədəniyyət Mərkəzi" yaradılacaq

Rektor akademik Abel Məhərrəmov Yunus Emre İnstitutunun türkologiya üzrə koordinatoru Yasin Tunçu qəbul edib. Rektor universitetdə yaranma tarixindən, inkişaf mərhələlərindən, beynəlxalq əlaqələrindən və bir çox universitet assosiasiyalarına üzvlüyündən, dünyanın aparıcı ölkələrinin ali məktəbləri ilə ikitərəfli əlaqələrindən danışıb. Yasin Tunç təmsil etdiyi Yunus Emre İnstitutu barədə məlumat verib, BDU ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib. Qeyd edək ki, Qəbələdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası başa çatandan sonra Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub, o cümlədən "Bakı Dövlət Universiteti və Yunus Əmrə İnstitutu arasında "Türkologiya layihəsi" üzrə Əməkdaşlıq Protokolu" imzalanıb. Yasin Tunç Yunus Emre İnstitutunun dünyanın 24 şəhərində türk dilinin və mədəniyyətinin öyrənilməsi və araşdırmasına xidmət edən Yunus Emre Türk Mədəniyyət Mərkəzinin fəaliyyət göstərməsi barədə məlumat verərək, belə bir mərkəzin BDU-da da yaradılması məsələsinə toxunub.





Rektor BDU-da belə Mərkəzlərin fəaliyyət göstərdiyini qeyd edərək, Yunus Emre Türk Mədəniyyət Mərkəzinin BDU-da yaradılmasını türk dilinin və mədəniyyətinin öyrənilməsi və təbliği üçün önəmli addım olduğunu vurğulayıb.

Qonaq Şərqşünaslıq fakültəsində, laboratoriya və elmi mərkəzlərdə olub, xoş təəssüratla ayrılıb.

# Anadolu Universitetinin nümayəndə heyəti BDU-da

**Rektor akademik Abel Məhərrəmov Türkiyə Respublikasının Anadolu Universitetinin nümayəndə heyətini qəbul edib.** Görüşdə Anadolu Universitetinin rektoru, professor Davut Aydın, rektor müavini professor Mustafa Cavcar, Aviasiya və Kosmos Elmləri dekanı, professor Mehmet Şerif Kavsaoğlu, Azərbaycan Türkiyə İş adamları Birliyi İdarə Heyətinin sədri Cemal Yangın, Türkiyə səfirliyinin II katibi Bahar Doğan iştirak ediblər.

Akademik Abel Məhərrəmov qonaqları universitetdə görməkdən məmnunluğunu ifadə edərək, Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrindən, qloballaşan dünyada Azərbaycanla Türkiyənin birgə addımlamasından bəhs edib. Rektor həmçinin BDU-nun Türkiyənin bir çox universitetləri ilə əlaqəsinin olduğunu, Ankara Universitetinin hüquqşünas hazırlığı ilə bağlı ikili diplom verəcəklərini qonaqların diqqətinə çatdırıb.

Anadolu Universitetinin rektoru, professor Davut Aydın, öz növbəsində Azərbaycanın ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetdə olmasından qürur hissi duyduğunu bildirib. O, Anadolu Universiteti haqda ətraflı məlumat verib. Bildirib ki, 1 milyondan çox tələbəsi olan universitetin 17 fakültəsi, 7 institutu, 42 araşdırma mərkəzi, 1 konservatoriyası, 1 "TRT-okul" televiziya kanalı, 2 studiyası var. Daha sonra rektor Davut Aydın səfərdə əsas məqsədin BDU və Anadolu Universiteti arasında əməkdaşlıq əlaqələri yaratmaqdan ibarət olduğunu söyləyib. Söhbət zamanı bununla bağlı bir sıra məsələlər də müzakirə edilib.

Daha sonra qonaqlar universitetlə yaxından tanış olmaq məqsədilə Nanoaraşdırmalar, Nüvə Maqnit Rezonans, Ekoloci monitorinq üzrə elmi-tədris laboratoriyalarında, Heydər Əliyev muzeyində, Elektron Tədris Mərkəzində olublar.

# Koreyanın səfiri ilə görüş

Avqust ayında rektor Abel Məhərrəmov Koreyanın Azərbaycandakı səfiri Li Ci Hanı qəbul edib. Səfirə universitet haqqında məlumat verən rektor, beynəlxalq əlaqələrdən, proqram və qrant layihələrdə iştirakdan danışıb. Azərbaycan-Koreya münasibətlərindən bəhs edən rektor 2007-ci ildən universitetdə Koreya dili və ədəbiyyatı ixtisasının tədris olunduğunu diqqətə çatdırıb. Həmin ixtisasda 38 nəfər tələbənin təhsil aldığını deyən A.Məhərrəmov onlardan 8 nəfərinin bu il məzun olduğunu bildirib. O da məlum olub ki, 3 nəfər məzun Koreya universitetlərinin magistratura şöbələrinə daxil olub. Dərs yerli müəllimlərlə yanaşı, Koreyadan gələn 3 müəllim tərəfindən tədris edilir.

Səfir Li Ci Ha da öz növbəsində Koreya-Azərbaycan münasibətlərindən məmnunluq ifadə edib, əlaqələrin təhsil sahəsini əhatə etməsini isə xüsusilə qeyd edib. Səfir bildirib ki, Koreyada 76 azərbaycanlı, Azərbaycanda isə 26 koreyalı tələbə təhsil alır.

Görüşdə universitetin Koreya Mərkəzinin bərpa işlərindən də danışılıb. Məlum olub ki, mərkəzin bərpa işlərindən sonra yaxın günlərdə açılışı planlaşdırılır.

Sonra səfir universitetlə tanış olub, elmi-tədqiqat laboratoriyalarına baş çəkib.

# Carl Zeiss optik mikroskopiya laboratoriyası açılıb

Biologiya fakültəsinin nəzdində Carl Zeiss optik mikroskopiya laboratoriyasının açılışı olub. Laboratoriyanın avadanlığı BDU-nun istifadəsinə Carl Zeiss şirkətinin Azərbaycan təmsilçisi olan OPTEC şirkəti tərəfindən verilib. Laboratoriya 10 ədəd Primo Star tədris mikroskopları ilə təchiz edilib, onlardan beşinin komplektinə rəqəmsal kameralar və zəruri proqram təminatı daxildir. Mərasimdə OPTEC B.V. (Hollandiya) şirkətinin manager directoru Aleksandr Fon Korff, OPTEC şirkətinin Azərbaycan nümayəndəliyinin direktotu Nataliya Həmzəyeva və digər qonaqlar iştirak edib.

Tədris laboratoriyasının açılışından sonra rektor Abel Məhərrəmov və Aleksandr Fon Korff əməkdaşlıq barədə Memorandum imzalayıblar. OPTEC və BDU BDU-nun bazasında müntəzəm olaraq elmi-praktiki və təhsil seminarların keçirilməsi barədə razılığa gəliblər.

BDU-nun bazasında, həmçinin, peşə hazırlığı, lazer skaner mikroskopiyası və rəqəmli təsvirin analizi üçün laboratoriyaları olan Carl Zeiss arayış mərkəzinin yaradılması planlaşdırılır.

Rektor Abel Məhərrəmov bildirib ki, bizim məqsədimiz gənc alimlər üçün rahat iş şəraiti yaratmaq, onları ən müasir avadanlıqla təchiz etməkdir. Buna görə də, yüksək texnologiya istiqamətində dünya liderləri ilə əməkdaşlıq bizim strateji xəttimizdir.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**

# Rektor Abel Məhərrəmovun açıqlamaları

**Kütləvi informasiya vasitələrində rektor akademik Abel Məhərrəmova müxtəlif mövzular ətrafında ünvanlanan suallara verdiyi cavabları olduğu kimi təqdim edirik:**



## *Abel Məhərrəmov: "Tələbələrin təhsil formasını sərbəst seçmələri universitetdə müəyyən problemlər yaradıb"*

**Bunu Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov jurnalistlərə açıqlamasında deyib.** Onun sözlərinə görə, Universitetdə qeydə alınan bu ilki nəticələr bir qədər gözlənilməz olub: "Əvvəllər BDU-ya qəbul olunan 3500 tələbənin 25-30 faizi qiyabi təhsil formasında təhsil alırdı. Builki tələbə qəbulu sistemində edilən dəyişikliyə əsasən, onlar təhsil almaq istədikləri istiqaməti özləri seçdiklərindən daha çox əyani təhsilə üstünlük veriblər. Bu məsələ dövlətin apardığı siyasət olduğundan tələbələrə heç bir baryer qoyulmadı. Universitetə qəbul olan tələbələrdən yalnız 90-a yaxını qiyabi təhsil almaq istədi. Amma bu, xırda problemlərə də gətirib çıxardı. Çünki elə ixtisas var idi ki, orada 1-3 tələbə təhsil almaq istəyirdi. Bunları rektorluqda müzakirə edərək müəyyən çıxış yolları tapmışıq. Əsas odur ki, gəncin istək və arzusu həyata keçsin".

***

## Abel Məhərrəmov: "Türkiyənin pulsuz ali təhsil təcrübəsi Azərbaycanda da tətbiq edilə bilər"

**Bunu Bakı Dövlət Universitetinin rektoru, Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Abel Məhərrəmov ali təhsil sistemində ödənişin ləğv olunması fikrinə münasibət bildirərkən deyib.** Onun sözlərinə görə, dövlətin siyasəti gənclərin sosial məsələlərinin həll edilməsinə, tələbələrin təhsil haqlarından tədricən azad edilməsinə yönəlib: "Bundan əlavə, Türkiyədə olduğu kimi, Azərbaycanda da tələbələr təhsil haqlarından tam azad edə bilərlər. Bizim dövlətdə bu düşüncə var. Yəni, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əməli addımlar atılır. Belə bir addımın da gələcəkdə atılması gözləniləndir".

A. Məhərrəmov "beyin axını" məsələsinə də münasibət bildirib. O qeyd edib ki, "beyin axını"nın səviyyəsi müstəqilliyin ilk illərində çox dinamik artıb: "Amma son 10 ildə xaricə gedənlərin hamısı geri qayıtmaqla bağlı bizə müraciət edirlər. Bundan əlavə, "əks-beyin axını"da mövcuddur. Nəinki özü-müzkülər, hətta Avropa, Rusiya, ümumilikdə Avroatlantika məkanından Bakı Dövlət Universitetinə işləməyə gələnlər var. Artıq Azərbaycana nəinki öz nümayəndələrimiz qayıdır, eyni zamanda, xarici ölkələrdən Azərbaycana gələn alimlərin sayı artır".

*APA*

*Bu il Bakı Dövlət Universitetinə 3450 tələbə qəbul olub. Hər fakültədən 2 nəfər yüksək nəticə göstərən tələbələri oxucularımıza təqdim edirik:*



# Yüksək bal toplayan tələbələrimiz

## Tarix fakültəsi



*Bilalzadə Xatın Rəmzi qızı 629 bal*

*Durmuşov Vilayət Vüqar oğlu 625 bal*



## Geologiya fakültəsi

*Şükürov Məhəmməd Əli oğlu 569 bal*





*Misirxanlı Elvin Elçin oğlu 499 bal*

## Kimya fakültəsi



*Sultanlı Ayan Oktay qızı 607 bal*

*Əliyeva Pakizə Elman qızı 594 bal*



## Biologiya fakültəsi



*Qurbanova Fidan Zaur qızı 565 bal*

*Muradova Aybəniz Murad qızı 546 bal*



## Ekologiya və torpaqşünaslıq fakültəsi

*Hacıyeva Səbinə Aydın qızı 587 bal*





*Fərruxzadə Zaur Rafael oğlu 516 bal*

## İlahiyyat fakültəsi

*Ələkbərzadə Nilufər Baxış qızı 601 bal*





*Fərəcova Ülkər Mübariz qızı 582 bal*

## Kitabxanaçılıq-informasiya fakültəsi



*İsmayılov Elşən Hümmət oğlu 459 bal*

*İdanlı Aydan Gülbala qızı 449 bal*



## Tətbiqi riyaziyyat və kibernetika fakültəsi



*Rəşidov Anar Mərdan oğlu 667 bal*

*İsazadə Nicat Ramiz oğlu 657 bal*



## Sosial elmlər və psixologiya fakültəsi



*Mustafayeva Fəridə İsa qızı 635 bal*

*Hüseynova Zibeydə Altay qızı 613 bal*



## Şərqşünaslıq fakültəsi



*Rəhimli Bəhruz Adil oğlu 543 bal*

*Daşdıyev Şahlar Qabil oğlu 537 bal*



## Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi



*Əhmədov Tural İlqar oğlu 652 bal*

*Həmidova Ülkər Nizami qızı 651 bal*



## Mexanika-riyaziyyat fakültəsi



*Əliyeva Kəmalə Kamal qızı 687 bal*

*Həsrətli Xanım Həsrət qızı 665 bal*



## Fizika fakültəsi



*Əliyeva Günay Cəbrayil qızı 586 bal*

*Mirzəyeva Elnarə Mürsəl qızı 504 bal*



## Hüquq fakültəsi



*Məmmədli Emil Oqtay oğlu 695 bal*

*Xanlarzadə Xanlar Mehti oğlu 695 bal*



## Filologiya fakültəsi



*Nuriyeva Lalə Babaxan qızı 662 bal*

*İskəndərli Xanım İskəndər qızı 651 bal*



## Jurnalistika fakültəsi



*Xəlilov Həmid Davud oğlu 633 bal*

*Ağarəhimov Əbilfəz Əziz oğlu 623 bal*



## Coğrafiya fakültəsi



*Babayeva Mehranə Əzizağa qızı 573 bal*

*Gurşadlı Nuranə Natiq qızı 546 bal*



# Gəlin tanış olaq

Bakı Dövlət Universitetinə yeni daxil olan tələbələrimizi təhsil alacaqları ali təhsil ocağı barədə qısa da olsa, bilgiləndirmək məqsədilə fakültələr, kafedralar və digər qurumlar haqqında məlumatı təqdim edirik:

Azərbaycan Demokratik Respublikası Parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edilib və onun nizamnaməsi təsdiq olunub. Beləliklə, Avropa və Asiyanın qovşağında ilk dünyəvi ali təhsil ocağı yaradılıb. Universitet ilk tədris ilinə 2 fakültə: tarix-filologiya və tibb fakültələri, 44 müəllim və 1094 tələbə ilə başlayıb. Universitetin ilk rektoru görkəmli rus alimi, Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski olub.

Hal-hazırda Bakı Dövlət Universiteti 4 korpusdan ibarətdir. BDU-da 60 -dək ixtisas üzrə 17 fakültədə 20 minədək tələbə təhsil alır. Dərslər 3 bölmədə (azərb, rus, ingilis) aparılır. 14 dil tədris edilir. 1300-dək müəllimdən 14 nəfəri Milli Məclisin deputatı, 22 nəfəri AMEA-nın həqiqi və müxbir üzvü, təxminən 300 nəfəri elmlər doktorudur.



## Rektorumuz

***Akademik Abel Məmmədəli oğlu Məhərrəmov***

Abel Məhərrəmov 1950-ci ildə anadan olub. 1966-cı ildə orta məktəbi medalla, 1971-ci ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1976-cı ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə edib. BDU-da böyük elmi işçi, tədris hissəsinin müdiri, Kimya fakültəsinin dekanı, dekan müavini vəzifələrində çalışıb. 1999-cu ildə Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olunub. "Əməkdar elm xadimi", Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.

Elm və texnologiya sahəsində səmərəli fəaliyyətinə görə İqtisadı Əməkdaşlıq Təşkilatının "Qızıl Medal"ına layiq görülüb. 2002-2004-cü illərdə Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının prezidenti, 2004-cü ildən isə vitse - prezidentidir.

Elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə bir çox orden, medal və mükafatlara layiq görülüb.

2005-2010-cu illərdə millət vəkili seçilib və Azərbaycan-Yaponiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Abel Məhərrəmov bir sıra xarici universitetlərin fəxri doktorudur.

"Şöhrət" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat sahəsində Dövlət Mükafatları Komissiyasının üzvüdür.

Azərbaycanda və xaricdə nəşr olunmuş 1000-dən çox elmi əsərin müəllifidir. Rəhbərliyi altında 34 kimya elmləri doktoru və namizədi yetişmişdir. Ailəlidir, iki övladı və beş nəvəsi var.

## Prorektorlarımız

***Bakı Dövlət Universitetində 6 prorektor fəaliyyət göstərir. Bu sayımızda həmin prorektorlar barədə qısa da olsa, məlumat təqdim edirik:***

***Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor***

Əliyeva İradə Nurəddin qızı
Biologiya elmləri doktoru, professor
İş telefonu: (+994 012) 539 15 87
e-mail: vice-rector@bsu.az
Əsas bina, II mərtəbə

***Elm və innovasiyalar üzrə prorektor***

Kazımzadə Aydın Həsən oğlu
Fizika-riyaziyyat elmləri doktoru, professor
İş telefonu: (+994 12) 538 15 54
e-mail: bsu_aydin@yahoo.com
Əsas bina, II mərtəbə

***Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor***

Məmmədova Şəlalə Rafik qızı
Tarix elmləri namizədi, dosent
Telefon:(+994 12) 439 06 95
e-mail: shalale01@yahoo.com
Əsas bina, II mərtəbə

***Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor***

Hacıyev Sani Tofiq oğlu
Tarix elmləri doktoru, professor
Telefon: (+994 12) 539 10 68
e-mail: s.t.hacıyev@mail.ru
Əsas bina, II mərtəbə

***İqtisadi və təsərrüfat işləri üzrə prorektor***

Nəbi Əhməd oğlu Ramazanlı
Texnika elmləri namizədi
Telefon: (+994 12) 510 08 23
e-mail: nramazanlı@yandex.ru
Əsas bina, I mərtəbə

***Ümumi işlər üzrə prorektor***

Rövşən Abdullayev Müslüm oğlu
Telefon: (+ 994) 012 5389275

***Tədris hissəsi***

Tədris hissəsinin rəisi: İbad İbadov
Telefon:(+994 12)539 06 86
Əsas bina, II mərtəbə, otaqlar 226, 251, 441

***Magistratura və Doktorantura şöbəsi***

Müdir: Afət Məmmədova
Telefon: (99412) 539 06 71
e-mail: m.afet@mail.ru
Əsas bina, I mərtəbə

***Həmkarlar İttifaqı Komitəsi***

Sədr: Fikrət Şiriyev
Telefon:(+994 12) 510 56 66
Əsas bina, III mərtəbə, (Heydər Əliyev muzeyinin yanı)

***Mətbuat və İnformasiya şöbəsi***

Müdir: Pərvanə İbrahimova
Telefon:(+994 12) 539 04 78
Əsas bina, III mərtəbə

***Elektron Tədris Mərkəzi***

Rəhbər: Məlahət Qurbanova
Telefon:(+994 12) 537 22 34
Əsas bina, I mərtəbə

***Kadrlar Şöbəsi***

Rəhbər: Səadət Namazova
Telefon:(+994 12) 539 06 81
Əsas bina, I mərtəbə

***Mühasibatlıq***

Rəhbər: Firuzə Babayeva
Telefon:(+994 12) 539 04 15
Əsas bina, I mərtəbə

***Elmi kitabxana***

Direktor: Sara İbrahimova
Telefon:(+994 12) 539 06 21
Əsas bina, I-IV mərtəbə; 1 saylı bina, III mərtəbə; 2 saylı bina, VII mərtəbə

***İnformasiya texnologiyaları mərkəzi***

Rəhbər: Əzbər Sadayev
Telefon:(+994 12) 5391146
Əsas bina, 1-ci mərtəbə, otaq 123

***"Həyat fəaliyyətinin təhlükəsizliyi" kafedrası***

Kafedraya professor İsmayıl Əliyev rəhbərlik edir.
Telefon: (+994 12) 538-06-78

***Bədən tərbiyəsi və idman kafedrası***

Kafedraya Akif Atakişiyev rəhbərlik edir.
Telefon:(+994 12) 438 73 94

***Tələbə-Gənclər Təşkilatı***

Sədr : Məmmədbağır Məmmədov
Telefon:(+994 12) 510 25 87
Əsas bina, I mərtəbə

***Tələbə Həmkarlar İttifaqı Komitəsi***

Sədr: Daşqın Qənbərov
Telefon:(+994 12) 539 05 43
Əsas bina, I mərtəbə

***Özfəaliyyət dərnəyi***

Rəhbər: Bayram Məmmədov
Əsas bina, III mərtəbə, Heydər Əliyev Muzeyinin yanı
Telefon:(+994 12) 539 05 26

***Ümumi şöbə***

Rəhbər: Kəmalə Əliyeva
Telefon:(+994 12)539 05 17
Əsas bina, II mərtəbə

***"Bakı Universiteti" nəşriyyatı***

Nəşriyyata İslam Şirinov rəhbərlik edir.
Telefon:(+994 12) 438 83 72

***Poliklinika***

Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən 30 saylı şəhər poliklinikası universitet müəllimlərinə və onların ailə üzvlərinə, həmçinin tələbələrə xidmət edir. Bu sağlamlıq ocağında 29 həkim və 23 tibb bacısı çalışır.

Universitetin "Gənc istedadlar" liseyində və Üzgüçülük Kompleksində isə tibb məntəqələri fəaliyyət göstərir.

Telefon:(+994 12) 537 05 43

***"Gənc istedadlar" liseyi***

Direktor: Qasım Hüseynov

17 aprel 2006-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Xüsusi istedada malik olan şagirdlərin (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" qəbul edilib. Bu proqrama uyğun olaraq, Respublika Təhsil Nazirliyinin 08.06.2007-ci il tarixli 708 saylı əmri ilə BDU-nun nəzdində "Gənc istedadlar" liseyi fəaliyyətə başlayıb. Fəaliyyət göstərdiyi dövrdə lisey bir çox uğurlara imza atıb, məzunları ən yüksək bal toplayaraq ali təhsil ocaqlarına daxil olublar.

Telefon:(+994 12) 510 74 54

***BDU-nun yeməkxanalar şəbəkəsinin quruluşu***

Abdulrəhim Hacıyev rəhbərlik edir.

Dörd tədris korpusundan ibarət olan Bakı Dövlət Universitetinin hər korpusunda müəllim və tələbələr üçün nəzərdə tutulmuş iki yeməkxana zalı fəaliyyət göstərir. Bundan əlavə, tələbələrin ad günlərini qeyd etmələri üçün musiqi mərkəzi ilə təchiz edilmiş xüsusi banket zalı və BDU-ya gələn çoxsaylı xarici, o cümlədən yerli qonaqları qarşılamaq üçün VİP zalı var. BDU-nun həyətində çay içmək və ya nahar etmək istəyənlər üçün isə yay kafesi fəaliyyət göstərir.

***İstirahət***

Altıağac təcrübə bazası tələbələrin çöl-tədris təcrübələrini təşkil etmək, müxtəlif tədbirlərin, yay məktəblərinin, konfrans və seminarların keçirilməsi, həmçinin istirahət məqsədilə 1991-ci ildə yaradılmışdır.

Bu il istifadəyə veriləcək Qubada yaradılmış tədris-təcrübə bazası isə biologiya fakültəsinin tələbələri üçün nəzərdə tutulub.

**Biz inanırıq ki, BDU-nun hər bir tələbəsi onlar üçün yaradılan şəraitdən razı qalacaqdır!**

**"Bakı Universiteti"**

## REKTORLARIMIZ

**V.İ.Razumovski**
(1857-1935)
Vasili İvanoviç Razumovski 1919-1920-ci illərdə BDU-ya rəhbərlik etmiş ilk rektordur.

**S.N.Davidenkov**
(1880-1961)
Sergey Nikolayeviç Davidenkov 1920-1923-cü illərdə rektor olmuşdur.

**A.D.Qulyayev**
(1870-1930)
Aleksandr Dmitriyeviç Qulyayev 1923-1926-cı illərdə rektor olmuşdur.

**T.A.Şahbazi**
(1892-1937)
Tağı Şahbazi Simurq 1926-1929-cu illərdə BDU-nun ilk azərbaycanlı rektoru olmuşdur.

**V.S.Yelpatyevski**
(1877-1937)
Vladimir Sergeyeviç Yelpatyevski 1929-cu ildə rektor olmuşdur.

**M.M.Məmmədov**
(1897-1937)
Maqsud Məmməd oğlu Məmmədov 1929-1930-cu illərdə rektor olmuşdur.

**M.Ə.Ələkbərli**
(1892-1937)
Məmmədkazım Ələkbər oğlu Ələkbərli 1934-1935-ci illərdə rektor olmuşdur.

**B.C.Həsənbəyov**
(1899-1937)
Balabəy Cabbar oğlu Həsənbəyov 1935-1937-ci illərdə rektor olmuşdur.

**Ə.M.Əliyev**
(1897-1962)
Əziz Məmmədkərim oğlu Əliyev 1937-ci ildə rektor olmuşdur.

**C.A.Ələsgərov**
(1907-1969)
Cəbrayıl Ağaəli oğlu Ələsgərov 1937-1941-ci illərdə rektor olmuşdur.

**Ş.R.Əliyev**
(1912-1969)
Şamil Rəhim oğlu Əliyev 1941-1944-cü illərdə rektor olmuşdur.

**A.İ.Qarayev**
(1910-1968)
Abdulla İsmayıl oğlu Qarayev 1944-1950-ci illərdə rektor olmuşdur.

**C.Z.Hacıyev**
(1910-1961)
Cəfər Xəndan Zeynal oğlu Hacıyev 1950-1954-cü illərdə rektor olmuşdur.

**Y.H.Məmmədəliyev**
(1905-1961)
Yusif Heydər oğlu Məmmədəliyev 1954-1958-ci illərdə rektor olmuşdur.

**Ş.F.Mehdiyev**
(1911-1985)
Şəfayət Fərhad oğlu Mehdiyev 1958-1965-ci illərdə rektor olmuşdur.

**M.S.Əliyev**
(1907-1972)
Mehdi Sadıq oğlu Əliyev 1965-1970-ci illərdə rektor olmuşdur.

**F.M.Bağırzadə**
(1926-1988)
Faiq Məmməd oğlu Bağırzadə 1970-1987-ci illərdə rektor olmuşdur.

**Y.C.Məmmədov**
(1930-2000)
Yəhya Cəfər oğlu Məmmədov 1987-1989-cu illərdə rektor olmuşdur.

**C.B.Quliyev**
(1927-2010)
Cəmil Bahadur oğlu Quliyev 1989-1990-cı illərdə rektor olmuşdur.

**M.G.Qasımov**
(1939-2008)
Mirabbas Göycə oğlu Qasımov 1990-1992-ci illərdə rektor olmuşdur.

**F.Y.Səməndərov**
(1939)
Firudin Yusif oğlu Səməndərov 1992-1993-cü illərdə rektor olmuşdur.

**M.N.Ələsgərov**
(1928)
Murtuz Nəcəf oğlu Ələsgərov 1993-1996-cı illərdə rektor olmuşdur.

**M.C.Mərdanov**
(1946)
Misir Cümayıl oğlu Mərdanov 1996-1998-ci illərdə rektor olmuşdur.

**A.M.Məhərrəmov**
(1950)
***Abel Məmmədəli oğlu Məhərrəmov 1999-cu ildən rektordur.***

# Tələbə adını qazandıq... Bəs sonra?

*Tələbələrin, xüsusən də birinci kurs tələbələrinin universitet mühitinə uyğunlaşmaları müəyyən vaxt aparır. Əksər hallarda öz hüquq və vəzifələrini bilməmələri, dərslərin Boloniya prosesində kredit sistemi ilə keçirilməsi və tələbələrin bu sistemlə, o cümlədən seminar və imtahanların hansı qayda üzrə aparılması ilə bağlı məlumatsızlıqları bir sıra problemlərlə qarşılaşmalarına səbəb olur.* ***Yeni dərs ili ərəfəsində bütün bunlara aydınlıq gətirmək məqsədilə tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, biologiya elmləri doktoru, professor İradə Əliyeva ilə görüşüb ona müəyyən suallar ünvanladıq. Həmin müsahibəni təqdim edirik:***

***- İradə xanım, ötən illərdə olduğu kimi, bu il də minlərlə tələbə ali təhsil almaq üçün Bakı Dövlət Universitetini seçib. Düşünürük ki, yeni dərs ili ərəfəsində tələbələrimizin öz hüquqlarını bilmələri əhəmiyyətlidir. Tələbənin əsas hüququ nədən ibarətdir?***

- Bəli, bu il də yüksək göstərici əldə edən abituriyentlər BDU-nu seçiblər. Onlardan 600-dən yuxarı bal toplayaraq qəbul olanların sayı 218 nəfərdir ki, 49 nəfəri 650-dən yuxarı bal toplayıbdır. Öncə tələbə adını qazananları təbrik edirəm, onlara yeni tədris ilində uğurlar arzulayıram. Tələbələrimizin tədris ilini uğurla başa vurmaları baxımından, təbii ki, öz hüquqlarını bilmələri çox vacibdir. Tələbənin əsas hüququ onun elmi bilik əldə etməsindən ibarətdir. Tələbə laboratoriya-təcrübə məşğələlərində, elmi konfranslarda iştirak etməli, elmi məqalələrlə çıxış etməli, həmçinin mədəni-maarif fəaliyyəti göstərməlidir. Bakı Dövlət Universiteti günbəgün inkişaf edir, yeniləşir, imkanları genişlənir. Universitetin informasiya, kitabxana fondlarından, kompyuter mərkəzlərindən, idman-sağlamlıq bazalarından, sosial-məişət xidmətlərindən, mədəni-maarif müəssisələrindən və s. qurumlardan istifadə etmə hüquqları da vardır.

***- Tələbələr bir çox hallarda öz vəzifələrini də bilmirlər və bu, xoşagəlməz halların yaranmasına səbəb olur. Mümkünsə, onların əsas vəzifələri barədə məlumat verərdiniz.***

- Doğrudur, təəssüflər olsun ki, bəzi tələbələr ya bilmədiklərindən, ya da buna önəm vermədiklərindən vəzifələrinə çox laqeyd yanaşırlar və bu, müəyyən mübahisələrin, narazılıqların yaranmasına səbəb olur.



Tələbə xüsusilə tədris məşğələlərini vaxtında yerinə yetirməlidir. Çünki yalnız belə olan təqdirdə yüksək ixtisaslı mütəxəssis kimi yetişə bilər. Həmçinin universitetin Nizamnaməsi ilə tanış olmalı, daxili intizama əməl etməlidir. Qeyd edim ki, cəmiyyətin mənəvi və əxlaqi normalarına əməl etmək, universitetin şərəfini qorumaq da tələbənin əsas vəzifələri sırasına daxildir.

***- Bəzən universitetə yeni daxil olan tələbədə elə təsəvvür yaranır ki, universitetə daxil olubsa, o, öz davranışlarına və tədris qaydalarına əməl etməsə belə, universitet diplomu alacaq. Bəlkə də, bu, bəzən onların universitetdən xaric olma hallarından xəbərsiz olmaları ilə əlaqəlidir. Tələbə hansı hallarda universitetdən xaric edilir?***

- Təəssüflər olsun ki, biz tədris intizamını, universitetin daxili qaydalarını ciddi şəkildə pozan tələbələrlə də qarşılaşmalı oluruq. Bu cür tələbələr, həmçinin müxtəlif çağırışlarla tədris prosesini pozmağa cəhd göstərənlər, müəyyən edilməmiş yerlərdə siqaret çəkənlər, universitetin əmlakını (parta, yazı taxtası, stol, stul və s.) korlayanlar və üzrsüz səbəbdən müəyyən edilmiş miqdardan çox dərs buraxanlar tələbə sıralarından xaric edilə bilərlər. Üzrsüz səbəbdən semestr müddətində tədris olunan bütün fənlərə ayrılmış ümumi saatların 30 faizindən çoxunda iştirak etməyən tələbə ali məktəbin daxili intizam qaydalarını pozmuş hesab edilir və buna görə də tələbə sıralarından xaric olunur. Universitetdə təhsil aldığı müddətdə tələbə imtahanda ikinci dəfə köçürmə və ya nizam-intizam qaydasının pozulması hallarına yol verərsə, həmin tələbə də universitetin tələbələri sırasından xaric edilir.

***-Tələbələrin biliyinin qiymətləndirilməsi də çox mühüm məsələlər sırasına daxildir. Universitetdə bu proses necə həyata keçirilir?***

-Bilirsiniz ki, Azərbaycan 2005-ci ildə Boloniya prosesinə qoşulub və bununla bağlı müvafiq öhdəliklər götürüb. Bu öhdəliklərdən biri də ali təhsil müəssisələrində kredit sisteminin tətbiqidir. Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Əsasnaməyə uyğun olaraq, Bakı Dövlət Universitetində kredit sistemi ilə tədrisin təşkili barədə daxili Əsasnamə qəbul edilib. Və bu Əsasnaməyə müvafiq olaraq, tələbələrin bir semestr ərzində hər hansı fənn üzrə toplaya bildiyi balların maksimum miqdarı 100-ə bərabər götürülür. Bunun yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahan nəticələrinə görə toplanılır. Konkret fənn üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir: 51 baldan aşağı - "qeyri kafi" (F), 51-60 bal - "qənaətbəxş" (E), 61-70 bal - "kafi" (D), 71-80 bal - "yaxşı" (C), 81-90 bal - "çox yaxşı" (B), 91-100 bal - "əla" (A).

***-Ümumilikdə tələbənin fəaliyyəti hansı ballarla qiymətləndirilir?***

-Tələbə dərsə davamiyyətə görə 10 bal, mühazirə mətnlərinin tərtibinə görə 5 bal, məşğələ və ya laboratoriya dərslərinin nəticələrinə görə 20 bal, kurs işinə görə 10 bal, tələbələrin fərdi işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə 5 balla qiymətləndirilir. Beləliklə, tələbə semestr müddətində ümumilikdə 50 bal toplayır.

***- Seminar dərslərinin nəticələrinə görə ballar necə hesablanır?***

- Seminar (məşğələ) dərslərində tələbənin jurnalda ən azı 3 dəfə qiyməti (kollokviumlar, frontal sorğular, praktik məsələnin həlli və s.) olduğu halda tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə ona bal ayrılmır. Semestr ərzində toplanan balların orta qiyməti hesablanır və fənnin tədrisinin bu növü üçün nəzərdə tutulmuş maksimum bal həddinə vurularaq 10-a bölünməklə müəyyənləşdirilir.

***- Semestr ərzində kollokviumlar neçə dəfə keçirilir?***

-Kollokviumların bakalavr pilləsində 3 dəfə, magistratura pilləsində isə 2 dəfə keçirilməsi məcburidir. Kollokviumda üzrsüz səbəbdən iştirak etməyən tələbəyə "0" yazılır.

***- Kurs işinin yerinə yetirilməsinə görə balların hesablaması hansı qayda üzrə həyata keçirilir?***

- Kurs işinin mövzuları kafedra tərəfindən hazırlanır və semestrin əvvəlində ən geci 15 gün müddətində tələbələrə paylanır. Kurs işi tələbənin fərdi əməyinin nəticəsidir. Əgər tələbə mövzunu tam əhatə edirsə, iş düzgün tərtib edilib və müdafiə zamanı ona cavabı dəqiq və hərtərəflidirsə, 10 balla qiymətləndirilə bilər.

***-İmtahanda ballar hansı qayda ilə yığılır?***

- İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan biletinə, bir qayda olaraq, fənni əhatə edən 5 sual daxil edilir. Bir sual "0" və "10" arası qiymətləndirilir.

***-Bir suala tələbənin cavabı hansı halda 10 balla qiymətləndirilir?***

- Əgər keçilmiş materialı dərindən başa düşürsə və cavabı dəqiq, hərtərəflidirsə, 10 balla qiymətləndirilir.

***-İmtahanda toplanan balın miqdarı neçə olarsa, nəticə "qeyri-kafi" hesab edilir?***

- İmtahandan toplanan balın miqdarı 26-dan az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

***-Dərsə davamiyyətə görə bal verilirmi?***

- Bəli, yuxarıda da qeyd etdiyim kimi, fənn üzrə dərslərə davamiyyətə görə maksimum 10 bal verilir. Semestr ərzində fənnin tədrisinə ayrılan saatların buraxılan hər 10 faizinə 1 bal çıxılır.

***-Tələbə hansı hallarda imtahana buraxılmır?***

-Semestr ərzində 26 baldan aşağı nəticə göstərən və fənn üzrə ayrılmış bütün saatların 30 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

***-Tələbə hansı hallarda imtahandan xaric edilir?***

-İmtahanda digər tələbələrlə danışan, onlara mane olan, kitabdan, mühazirə konspektlərindən və icazə verilməyən digər materiallardan istifadə edən və köçürən, imtahan biletini və cavab blanklarını təhvil verməyən tələbələr imtahandan xaric edilir və imtahanın nəticəsinə görə, ona "0" bal müəyyənləşdirilir.

***- Üzrlü və ya üzrsüz səbəbdən imtahanda iştirak edə bilməyən tələbələr nə etməlidirlər?***

- Əvvəlcə qeyd edim ki, sessiyanın sonunadək imtahana gəlməyən tələbə dekanlığa onun səbəbi haqqında rəsmi məlumat verməlidir. Belə olan təqdirdə növbəti semestrin başlanğıcına qədər həmin tələbəyə bir dəfə yenidən imtahanda iştirak etmək şəraiti yaradılır. Üzrsüz səbəbdən imtahanda iştirak etməyənlər həmin fəndən "qeyri-kafi" qiymət almış sayılırlar və yalnız həmin fənni təkrar dinlədikdən sonra növbəti dəfə imtahan verə bilərlər.

***-Bəs tələbə ona verilən qiymətdən narazı olduqda nə etməlidir?***

- Qiymətdən razı qalmayan tələbə universitetdə imtahanlarla əlaqədar yaradılan apelyasiya komissiyasına sonuncu imtahandan sonra, 3 gün ərzində ərizə ilə müraciət edə bilər. Belə olan təqdirdə komissiyanın sədri tələbənin cavab blankının yenidən yoxlanmasını təşkil edir.

***- Boloniya prosesinə keçildikdən sonra hər bir fakültədə tyutorlar fəaliyyət göstərir. Onların əsas vəzifələri nədən ibarətdir?***

- Tələbə bir çox hallarda tədrisin qiymətləndirilməsi prosesini tam anlamaqda çətinlik çəkir və kimə müraciət edəcəyini də bilmir. Bu baxımdan qeyd edim ki, tyutorlar tələbələrə köməklik göstərmək məqsədilə bu vəzifəyə təyin olunurlar. Onlar akademik məsləhətçi kimi tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim etməli, tələbələrin fərdi və işçi planlarının tərtibi üçün onlara qrup və fərdi məsləhətlər verməlidirlər.

***-Sonda tələbələrə arzunuz...***

- Yeni tədris ilində onların hər birinə cansağlığı, dərslərində müvəffəqiyyətlər arzulayıram.

# Professor Avstraliyada keçirilən konqresə qatılıb

***Beynəlxalq Fotoqrammetriya və Məsafədən duyma (tədqiqat) cəmiyyətinin (İSPRS) Avstraliyanın Viktoriya ştatının Melburn şəhərində XXII konqresi keçirilib.*** Geodeziya və kartoqrafiya kafedrasının müdiri, texnika elmləri doktoru, professor Məqsəd Qocamanov Sergi və İclas (konvensiya) mərkəzində keçirilən konqresdə ingilis dilində elmi məruzə ilə çıxış edib. 100-dən çox ölkədən 1500-dək alim və mütəxəssisin iştirak etdiyi konqresə direktorluğu Avstraliyanın Fotoqrammetriya və Məsafədən duyma cəmiyyətinin prezidenti, professor Cliff Ogleby, ümumi rəhbərliyi isə İSPRS-in prezidenti, professor Orhan ALTAN edib. Məruzələr 8 komissiya və onların alt komissiyalarında dinlənilib. Ümumyer fəza məlumatlarının toplanması və təhlili, ətraf mühit və səhiyyə, zəlzələlər və təbiət kataklizmlərinin qiymətləndirilməsi, metrologiya və iqlimşünaslıq, urbanizasiya və təsərrüfatın generalizasiyası və s. kimi olduqca çoxşaxəli mövzular ətrafında çıxışlar olub.

*Konqresdə müzakirə olunan məsələlər ölkəmiz üçün də olduqca aktual və əhəmiyyətlidir.* Belə ki, respublikamız 2013-cü ildə öz kosmik peykini fəzaya qaldırmağı planlaşdırır. Sonradan isə fotqrammetriya, məsafədən duyma,



eləcə də meteoroloji proqnozlar və s. məqsədlər üçün öz növbəti süni peyklərini kosmosa yönəltmək niyyətindədir. Bununla əlaqədar olaraq Azərbaycan alimlərinin xarici ölkə alimləri ilə təcrübə mübadiləsi aparması, onların əldə etmiş olduğu nəticələrdən bəhrələnməsi olduqca vacibdir.

Professor Məqsəd Qocamanovun konqres iştirakçıları ilə çoxsaylı görüşləri olub, o cümlədən Avstraliyanın konqres direktoru prof. Cliff Ogleby, İSPRS-in keçmiş prezidenti Orhan Altan və İSPRS-in yeni seçilmiş prezidenti Chen Jun-la görüşlərdə Azərbaycanın bu təşkilata tamhüquqlu üzv olması məsələsi qaldırılıb və İSPRS-in Baş Assambleyası tərəfindən bu təklif dəstəklənərək müsbət qərar qəbul edilib. Eyni zamanda professor M. Qocamanov I komissiyanın (Georeferens və peyk naviqasiya duyma inteqral sistemləri) işçi qrupuna üzv qəbul edilib.

Bu baxımdan M.Qocamanovun konqresin işində iştirakı elmi biliklərin qloballaşması, inteqrasiyası, təcrübə mübadiləsi, innovasiyaların əldə edilməsi baxımından, eləcə də xarici ölkə universitetləri, elm mərkəzləri, şirkətləri ilə əlaqələrin qurulması istiqamətində atılmış çox uğurlu addımlardan hesab edilə bilər.





Səhifəni təqdim etdi: ***Anzulə Əmirova***

# İlk astrofizik alim və müəllim

***Respublikamızda astrofizika ixtisası üzrə elmlər namizədi (1953) və elmlər doktoru (1971) adı olan ilk alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Beynəlxalq Astronomiya İttifaqının üzvü, görkəmli astrofizik, professor Rəhim Əyyub oğlu Hüseynov ömrünün 88-ci ilində vəfat edib.*** Professor Rəhim



Hüseynov 88 illik həyatında elmli, bilikli bir alim, humanist, obyektiv, sevimli müəllim və olduqca mədəni bir insan kimi neçə-neçə ömürlərə nur saçıb, neçə-neçə ürəkləri fəth edib. Rəhim müəllimin həyat yolu hər bir alim, hər bir müəllim, hər bir Azərbaycan vətəndaşı üçün örnəkdir.

Rəhim Əyyub oğlu Hüseynov 1924-cü ilin 9 sentyabrında Şuşa şəhərində anadan olub. 30-cu illərin amansız aclıq dövrünün yaratdığı problemlərlə üz-üzə gələn Rəhim Hüseynov orta təhsilini almaq üçün sözün həqiqi mənasında böyük çətinliklərə sinə gəlməli olub.

Ona 6 yaşından məktəbə getmək nəsib olmayıb, 3 il böyük qardaşının kitablarından istifadə etməklə "təhsilini" evdə alıb. 1933-cü ildə Rəhim müəllimin ailəsi Ağdama köçüb və Rəhim müəllim Ağdam şəhəri 1 saylı natamam orta məktəbin ıv sinfinə qəbul olunub. Daha sonra isə təhsilini qohumlarının himayəsində Bakı şəhəri 150 saylı məktəbdə davam etdirib. 1940-cı ildə orta məktəbi əla qiymətlə bitirərək həmin il imtahansız Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olub. 1946-cı ildə Universiteti fərqlənmə diplomu ilə bitirib.

***Aspiranturada oxumaq üçün Universitetdə saxlanılan Rəhim müəllim elə 1946 - cı ilin yayında Azərbaycan Elmlər Akademiyası və Dövlət Universitetinin birgə elmi ekspedisiyasının iştirakçısı olub.*** Bu ekspedisiyanın məqsədi isə respublikamızda gələcək astrofizika rəsədxanası üçün əlverişli yerin seçilməsi idi. Astrofizika rəsədxanası elə yerdə olmalıdır ki, orada il ərzində açıq gecələrin sayı mümkün qədər çox olsun, havanın temperaturunun gün ərzində dəyişməsi kiçik olsun, rütubət normal olsun, dəniz səviyyəsindən hündürlük yüksək olsun, atmosfer şəffaf və hava küləksiz olsun, əlavə işıqlanma və tozlanma olmasın. Elmi ekspedisiyalar müəyyən etdi ki, yuxarıda göstərilən şərtləri Pirqulu (Şamaxı rayonu) daha yaxşı ödəyir. 1953 - cü ildən fəaliyyətdə olan Pirqulu Astronomiya stansiyası və 1956-cı ildən fəaliyyətdə olan Astrofizika bölməsinin bazasında 1961 - ci ilin yanvarında Şamaxı Astrofizika Rəsədxanası rəsmi ad aldı və o vaxta qədər "Günəş fizikası" şöbəsinin rəhbəri olan Rəhim müəllim eyni zamanda Rəsədxana direktorunun elmi işlər üzrə müavini təyin olundu.

*Rəsədxanada işlədiyi 20 ildən çox müddətdə bu elm ocağının yaranması və inkişafında Rəhim müəllim əlindən gələni edib.* Buraya Rəsədxananın elmi-texniki bazasının yaradılması, yüksək ixtisaslı kadrların hazırlanması, başqa rəsədxanalar və astronomiya ilə məşğul olan digər elmi mərkəzlərlə əlaqə və konkret elmi istiqamətlər üzrə tədqiqatların aparılması kimi kompleks məsələlər daxildir. Qeyd edək ki, 1957 - ci ildə Yerin süni peyki buraxılan ərəfədə Rəhim müəllim bu peyki müşahidə etmək məqsədilə Universitetdə xüsusi stansiyanın yaradıcısı və rəhbəri olub.

Rəhim müəllim 1953 - cü ildə astrofizika üzrə respublikamızda ilk elmlər namizədi, 1971 - ci ildə isə ilk elmlər doktoru elmi dərəcəsi alan alimdir.

***Rəhim müəllimin elmi fəaliyyəti Günəş fizikası və planetar dumanlıqlarla bağlıdır.*** Rəhim müəllimin ilk tədqiqat işləri Günəş atmosferinin radiooptik xüsu-siyyətlərinə aid olub. O, elektron konsetrasiyası və elektron temperaturunun Günəşin atmosferində dəyişməsini nəzərə almaqla onun radiodiapozonda şüalanmasının udulmasını daha böyük dəqiqliklə hesablayıb. O, müşahidələrə istinad etməklə göstərib ki, qısa radiodiapozonda Günəş atmosferinin yuxarı qatı olan taca qeyri - bircins səpən mühit kimi baxmaq lazımdır. Günəş radioşüalanmasının yaranma mexanizmini öyrənən ilk müəlliflərdən biri Rəhim Hüseynov olub. O, göstərib ki, Günəşin fəal oblastlarının təzahürü olan qeyri-istilik şüalanmasının mexanizmi güclü və dəyişən maqnit sahəsindəki relyativist elektronların sinxrotrop şüalanma mexanizmidir. *O, Şamaxı Astrofizika Rəsədxanasında aldığı müşahidə materialları əsasında Günəş alışmalarına aid qiymətli nəticələr əldə edib.* İlk dəfə olaraq göstərib ki, Günəş alışmasının ilk fazasında güclü nöqtəvi partlayış nəzəriyyəsini tətbiq etmək olar. Rəhim müəllim göstərib ki, Günəş alışmalarının enerji mənbəyi günəş ləkələrinin çox dəyişkən maqnit sahəsi və bu sahənin günəş atmosferinin bütün qatlarında öz təsirini göstərməsilə bağlıdır.

Rəhim müəllim Universitetin Fizika - riyaziyyat fakültəsində astrofizika ixtisaslaşması üzrə ilk qrupun təşkilatçısıdır. 1975-ci ildə Universitetdə təşkil olunmuş astrofizika kafedrasına 17 il rəhbərlik edib, sonralar isə kafedranın professoru olub. Bu kafedranın təşkilindən sonra Şamaxı astrofizika Rəsədxanası və Milli Aerokosmik Agentlikdə işləmək üçün, orta məktəblərimizdə fizika fənni ilə yanaşı astronomiyanı tədris etmək üçün bilikli mütəxəssislər hazırlanıb. İftixarla qeyd etmək lazımdır ki, respublikamızda və respublikamızdan kənarda çalışan azərbaycanlı astrofiziklərin demək olar hamısı Rəhim müəllimin tələbələridir.

*Rəhim müəllim "Динамические процессы в солнечных вспышках" monoq-rafiyasının, ali məktəblər üçün ilk "Astronomiya" dərsliyinin, o cümlədən orta məktəblər üçün ilk "Astronomiya" dərsliyinin müəllifidir. İlk fundamental "Astronomiya Terminləri Lüğəti" nin işıq üzü görməsi də Rəhim müəllimin əməyidir.*

***Rəhim müəllimin xatirəsi onun sevimli tələbələrinin qəlbində həmişə yaşayacaqdır.***

**"Bakı Universiteti"**



Universitet tədbirlərindən birində



Həyat yoldaşı ilə...



Oğlu, gəlini, həyat yoldaşı ilə



Nəvəsi və həyat yoldaşı ilə



Tələbələri ilə

# TƏBRİK EDİRİK!



***Biologiya fakültəsinin dekan müavini, biologiya elmləri namizədi, dosent Vilayət Abdıyevin anadan olmasının 60, elmi-pedaqoji fəaliyyətinin 35 ili tamam olur.***

Vilayət Abdıyev 1952-ci il sentyabrın 20-də Tovuz şəhərində anadan olub. 1969-1974-cü illərdə BDU-nun biologiya fakültəsində təhsil alıb. 1975-ci ildən universitetdə çalışan Vilayət müəllim 1987-ci ildə Litva Respublikasının Vilnus şəhərində yerləşən Botanika İnstitutunda "Duzluluq şəraitində qlikofit və halofit bitki köklərinin udulma və tənəffüs aktivliyi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi alıb. 1990-cı ildən Bitki fiziologiyası kafedrasının dosentidir. 1998-ci ildən Biologiya fakültəsinin dekan müavini vəzifəsində çalışan Abdıyev fakültədə biometriya, bitki fiziologiyası fənlərini tədris edir. Dəfələrlə beynəlxalq konfranslarda çıxış edən Abdiyev 70-dən çox elmi əsərin, bir neçə dərs vəsaitinin müəllifidir. Elmi əsərləri dünyanın bir çox ölkələrində, o cümlədən Rusiya, İngiltərə, Ukraynada,Türkiyədə,Gürcüstanda və s. çap olunub. Hal-hazırda doktorluq dissertasiya işini tamamlamaq üzrədir.

Vilayət müəllim həmişə Universitetin və fakültənin ictimai həyatında, elmi konfransların və tədrisin təşkilində fəal iştirak edib. Biologiya fakültəsinin bütün professor-müəllim heyətinin və tələbələrinin rəğbətini qazanıb.

***Vilayət Abdıyevi təbrik edir, ona cansağlığı, fəaliyyətində uğurlar arzulayırıq.***

# Universitet yenilikləri

***Universitet hər il olduğu kimi, bu tədris ilinə də bir sıra yeniliklərlə başlayır.***

Fizika, kimya, biologiya, coğrafiya, ekologiya, jurnalistika, o cümlədən humanitar fakültələrin elmi-tədqiqat, tədris laboratoriyalarının yeni avadanlıqlarla təmin olunub, bir sıra laboratoriyalar yenidən qurulub, yataqxana kompleksinin layihələndirmə işləri artıq başa çatıb.

***Fizika fakültəsinin*** Nanoaraşdırmalar laboratoriyasına dəyəri 1 milyon 200 min dollar olan CSM - 7600 F elektromikroskop və Mini Flex 600 Rentgen difraktometr, ***kimya fakültəsinə*** dəyəri 100 min dollar olan qazxromotoqrof, ***biologiya fakültəsinə*** neyrospektr və mikroskoplar, ***coğrafiya fakültəsinə*** CPS cihaz avadanlıqları alınıb, ***ekologiya və torpaqşünaslıq fakültəsinin*** bioekologiya laboratoriyası və ***jurnalistika fakültəsinin*** İnternet Televiziyasının yayımı üçün otaq istifadə üçün tam hazır vəziyyətə gətirilib.

***Biologiya fakültəsində*** "Su bioehtiyatlrı və akvabitkilər", ***Filologiya fakültəsində*** isə "Rus dili və ədəbiyyatı" adlı yeni ixtisaslar yaradılıb. BDU ilə Türkiyəninin Ankara Universiteti arasında "İkili diplom " verilməsini nəzərdə tutan anlaşma memorandumuna əsasən hər iki tərəfdən 30 nəfər olmaq şərtilə bu il türk proqramına müvafiq olaraq mütəxəssis hazırlığı aparılacaq.

Bu tədris ilindən həmçinin universitetin Quba rayonunda Tədris-Təcrübə Bazası istifadəyə hazırdır. 8 hektar ərazini əhatə edən Tədris-Təcrübə bazası 5 mərtəbəlidir və 400-ə yaxın universitet əməkdaşı və tələbə üçün nəzərdə tutulub. Yataqxana kompleksinin layihələndirmə işləri başa çatdırılıb.

***Mətbuat xidməti***

# Rusiyada yeni ada



**Frans-İosif Torpağı arxipelaqında (Rusiya) yeni, 192-ci ada meydana çıxıb.** Onu "Rusiya" atom buzqıran gəmisindəki ekspedisiyanın iştirakçıları kəşf ediblər. Yeni ada arxipelaqın cənubundakı Nortbruk adasında boğaz əmələ gəldikdən sonra yaranıb. Onun artıq səmadan şəklini çəkmiş və sahil hüdudlarının koordinatlarını müəyyənləşdiriblər. Arktika və Antarktika Elmi Tədqiqat İnstitutunun mətbuat xülasəsində deyilir: "Beləliklə, Arxangelsk vilayətinin Primorsk rayonuna daxil olan arxipelaqdakı adaların sayı 192-yə çatıb". Nortbruk adasının sahəsi 254 kvadratmetrdir. XIX əsrin sonu - XX əsrin əvvəllərində ondan qütb ekspedisiyaları bazası kimi istifadə olunub. **"**Rusiya" atom gəmisində ekspedisiya sentyabrın 8-də başlanıb. Onun məqsədi "Şimal qütbü-39" Arktika stansiyasının iştirakçılarını növbəti ekspedisiya ilə əvəz etməkdir.

# BDU-da əsas hadisələr

1919 - Universitet təsis edilib. Tarix-filologiya və tibb fakültələri açılıb.
1920 - Fizika-riyaziyyat fakültəsi açılıb.
1921 - Azərbaycan (türk) dilində tədris başlanıb.
1921 - "Elmi xəbərlər" jurnalı çap olunmağa başlanıb.
1922 - Adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti edilib. Müstəqil şərqşünaslıq fakültəsi yaradılıb.
1924 - Universitetə V.İ.Leninin adı verilib.
1926 - Universitetə ilk azərbaycanlı rektor təyin edilib.
1928 - Hüquq fakültəsi yaradılıb.
1929 - 10 illik yubileyi qeyd edilib.
1930 - Yeni Universitet şəhərciyinin tikilməsi haqqında qərar qəbul olunub.
1930 - Müstəqil ali məktəblər bəhanəsi ilə universitet bağlanıb.
1934 - ADU yenidən fəaliyyətə başlayıb. Kimya fakültəsi açılıb. Biologiya fakültəsi müstəqil fakültə olub.
1937 - Onlarla tanınmış ziyalı repressiyaya məruz qalıb, 4 rektor və 100 əməkdaş güllələnib.
1939 - Universitetə S.M.Kirovun adı verilib.
1941 - ADPU, ADİU, ADBTİA, ADU universitetə birləşdirilib.
1941 - Rektor və həmin ilin bütün məzunları cəbhəyə yollanıb.
1943 - Geologiya və coğrafiya fakültələri yaradılıb.
1945 - BDU-nun bazası əsasında AMEA təşkil edilib.
1957 - Ümummilli lider H.Əliyev tarix fakültəsini bitirib.
1958 - Müstəqil fizika fakültəsi yaradılıb. Müstəqil mexanika-riyaziyyat fakültəsi yaradılıb.
1962 - Müstəqil kitabxanaçılıq-informasiya fakültəsi yaradılıb.
1964 - Əsas tədris binası istifadəyə verilib.
1969 - 50 illik yubileyi qeyd edilib. Müstəqil jurnalistika fakültəsi yaradılıb.
1971 - Universitet Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilib.
1972 - Tətbiqi riyaziyyat və kibernetika fakültəsi yaradılıb.
1974 - Kitabxanaya "Elmi kitabxana" statusu verilib.
1977 - Birinci tədris korpusu istifadəyə verilib.
1987 - İkinci tədris korpusu istifadəyə verilib.
1990 - Universitetə M.Ə.Rəsulzadənin adı verilib.
1991 - Müstəqil geologiya fakültəsi yaradılıb.
- Müstəqil coğrafiya fakültəsi yaradılıb.
- Sosial elmlər və psixologiya fakültəsi yaradılıb.
- Tətbiqi riyaziyyat ETİ yaradılıb.
- Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi yaradılıb.
1992 - İlahiyyat fakültəsi yaradılıb.
1994 - Ümummilli lider H.Əliyev BDU-nun "Fəxri doktoru" seçilib.
1994 - 75 illik yubileyi qeyd edilib.
1999 - Lokal internet şəbəkəsi istifadəyə verilib.
2000 - 80 illik yubileyi qeyd edilib.
2000 - İlkin adı - Bakı Dövlət Universiteti bərpa edilib.
2001 - İdman kompleksi istifadəyə verilib.
2002 - Qaradəniz Hövzəsi Universitetlər Assosiasiyasının mərkəzi seçilib.
2002 - Nəşriyyat istifadəyə verilib.
2003 - Üzgüçülük kompleksi istifadəyə verilib.
2005 - Yeni elmi-tədqiqat laboratoriyaları və Fizika İnstitutu istifadəyə verilib.
2006 - "Gənc istedadlar" liseyə qəbul keçirilib.
2006 - "Bakı Universiteti" yaşayış kompleksinin tikintisinə başlanıb.
2008 - Yeni tədris korpusu istifadəyə verilib.
2009 - 90 illik yubileyi qeyd edilib.
2010 - Tədris Elektron Mərkəzi yaradılıb.
2011 - Ekologiya və torpaqşünaslıq fakültəsi açılıb.
2012 - Biologiya fakültəsində "Su bioehtiyatları və akvabitkilər", Filologiya fakültəsində isə "Rus dili və ədəbiyyatı" adlı yeni ixtisaslar yaradılıb.

# Beynəlxalq əlaqələrimiz...

## Prorektor İrandan gələn qonaqları qəbul edib

İyulda İran İslam Respublikasının Yollar Şəhərsalma Nazirinin müavini, İİR Meteorologiya Təşkilatının (İRİMO) prezidenti, Dünya Metereologiya Təşkilatının (WMO) daimi nümayəndəsi cənab Bahram Sanaei və İran (İRİMO) - Şərqi Azərbaycan Meteorologiya İdarəsinin baş meneceri Dr. Amir Hassanalizadeh Mazhar Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorekto dos. Ş.Məmmədova ilə görüşüblər. Görüş zamanı Azərbaycan və İranın Dünya Meteorologiya Təşkilatının üzvü olması bildirilib (təxminən 40 üzvü var), təşkilat çərçivəsində İran və Azərbaycabn arasında əməkdaşlıqdan bəhs edilib.

Görüşdə Coğrafiya (əsasən, torpaqşünaslıq sahəsində) Ekologiya, Fizika fakültələri ilə tələbə mübadiləsi, birgə layihələrin işlənməsi haqqında müzakirələr aparılıb və Memorandum barədə danışıqlar aparılıb.

## Tiflisdə regional konfrans keçirilib

Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor, dosent Şəlalə Məmmədova və Coğrafiya fakültəsinin dekanı, professor Fərda İmanov "Qafqazın su resurslarının qarşılıqlı idarəsi" üzrə beynəlxalq magistr proqramının hazırlanması ilə bağlı Gürcüstanın paytaxtı Tiflis şəhərində keçirilən regional konfransda iştirak ediblər. Ş.Məmmədova BDU-nun bu layihədə iştirakını mümkün edən mütəxəssis, texniki baza və tədris vasitələrinin qiymətləndirilməsi, F.İmanov isə tədris proqramlarının tərtibi və professor-müəllim heyətinin treninqi ilə bağlı məruzələrlə çıxış ediblər.

## Universitetlər arası əməkdaşlıq proqramı imzalanıb

Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor, dosent Şəlalə Məmmədova , Beynəlxalq layihələr və qrantlar şöbəsinin müdiri, dosent Təranə Mahmudova Rusiya Federasiyasının Kazan Federal Universitetinin Naberecniy Çelnı filialının direktoru Dmitriy Yuryeviç Tumanovla görüşüb. Görüş zamanı tədris və tədqiqatlar sahəsində əməkdaşlıq sahələri müzakirə olunub, birgə layihələrin və elmi əməkdaşlığın inkişafı üçün universitetlər arası əməkdaşlıq proqram imzalanıb.

Tələbə yaradıcılığı

# Öyrətmə məni



Üzünə baxmaqdan doymayır gözüm
Nə qədər danışsaq bitməyir sözüm.
Təkcə qəlbim deyil, vurğunam özüm,
Bu qədər özünə öyrətmə məni.
Qara gözlərinə qalanda həsrət
Sanki qopur tufan, olur qiyamət.
Gülüm, çox göstərmə sən mənə diqqət
Bu qədər özünə öyrətmə məni.
Sən özün-özünü sevdirdin mənə
Demişəm, deyirəm, deyəcəm yenə
Təkcə bağlanmışam ürəkdən sənə
Bu qədər özünə öyrətmə məni.

***Ülvi Aydın,***
***Filologiya fakültəsinin 3-cü kurs tələbəsi***

# ETİBARSIZDIR

Biologiya fakültəsinin II kurs tələbəsi Babayeva Nisə Ələsgər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Feyziyeva Aygün Telman qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Cografiya fakültəsinin II kurs tələbəsi Əliyeva Günel Taləb qızına məxsus tələbə vəsəqəsi itdiyi üçün etibarsız sayılır.

***

Fizika fakültəsinin III kurs tələbəsi Hüseynli Türkanə Gülağa qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Fizika fakültəsinin IV kurs tələbəsi Kərimova Mülayim Yasif qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

SON SƏHİFƏ

№ 09 (1432) 15 sentyabr 2012-ci il

## Jeni nəşrlər

### "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi"




***Professor Cahangir Məmmədlinin müəllifliyi ilə "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" adlı dərslik işıq üzü görüb.*** Dərslikdə jurnalistikanın inkişaf mərhələləri, mətbuat üzərində tarixi qadağa mexanizmləri, jurnalistikanın nəzəri konsepsiyaları, peşə etikasının və hüquqi tənzimləmə prosesinin əsas aspektləri, Kütləvi informasiya vasitələrinin tipoloji xarakteristikası, mətbuat janrları, praktik fəaliyyətin beynəlxalq prinsipləri, qəzet istehsalında standartlara yaradıcı münasibət, telejurnalistikanın bəzi yaradıcılıq prinsipləri və s. məsələlər öz əksini tapıb. Kitab universitetlərin jurnalistika ixtisası üzrə təhsil alan tələbələri üçün nəzərdə tutulub.

*Kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Könül Niftəliyeva, rəyçilər filologiya üzrə elmlər doktoru, professor Nəsir Əhmədli və "525-ci qəzet"in baş redaktoru Rəşad Məciddir.*

### "Xarici ölkələrin jurnalistikası tarixi"




***Professor Həmid Vəliyevin müəllifi olduğu "Xarici ölkələrin jurnalistikası tarixi" adlı dərslik oxucuların ixtiyarına verilib.*** Dərslikdə qədim dövrdən XX əsrin axırlarınadək olan müddətdə dünya jurnalistikası tarixindən xronoloji ardıcıllıqla bəhs edilir, kütləvi informasiya vasitələrinin tipoloji inkişafı prosesi nəzərdən keçirilir, müxtəlif ölkələrin və xalqların sosial, qarşılıqlı mədəni fəaliyyətinin xüsusiyyətləri, ümumi inkişaf meylləri göstərilir.

Dərslik universitetlərin jurnalistika fakültələrinin, filologiya fakültələrinin və humanitar fakültələrin jurnalistika şöbələrinin tələbələri, magistr, dissertant və doktorantlar, xarici ölkələrin jurnalistikası tarixini tədris edən müəllimlər, habelə dünya jurnalistikası tarixi ilə maraqlananlar üçün nəzərdə tutulub.

*Dərsliyin elmi redaktorları filologiya elmləri doktoru, professor Nəsir Əhmədli, filologiya elmləri namizədi, dosent Vüqar Əliyev, rəyçilər isə filologiya elmləri doktoru, professor Vaqif Arzumanlı, tarix elmləri namizədi, dosent Samir Məmmədov, filologiya üzrə fəlsəfə doktoru Şahbaz Musayev, pedaqogika üzrə fəlsəfə doktoru Knyaz Aslandır.*

## Bunları bilmək MARAQLIDIR




***Fədai Təbrizinin (XVI əsr) "Bəxtiyarnamə" poeması Təbrizdə, onun şəxsi arxivində saxlanılır.

***Ukrayna şəhəri Odessa 1795-ci ilə qədər Hacıbəy adlanırdı.

***İlk teatr qədim Yunanıstanda yaranıb. O vaxtlar faciəvi rol oynayan aktyorlar kədərli, komik rol oynayan aktyorlar isə şən maska taxırdılar. Teatr rəmzi olan maskalar belə yaranıb.

***Dünyada işıqdan sürətli heç nə yoxdur. Onun sürəti saniyədə 300000 km

***İlk məktəb zəngini şüşədən Pifaqor hazırlamışdır.

***"Mədəni" sözü Mədinə sözündən götürülərək "şəhərli" deməkdir.

***Kirpi ilin 236 gününü yatır.

***Qərənfili və qızılgülü eyni güldana qoyduqda ətirləri itir.

***Fotoaparat yeni yarandığı vaxtda şəkil çəkdirənlər onun qarşısında 20 dəq. dayanmalı olurdular.

***Yunan və gürcü əlifbasında böyük hərf yoxdur.

***İlk eskalator 1911-ci ildə Londonda açılmışdır.

***Hindistanda matəm və hüzn rəngi ağ rəngdir.

***Çin otellərində xidmətçilərə "çay pulu" vermək təhqir sayılır.

***Keçmişdə arpa (1 karat) ən kiçik çəki vahidi hesab olunurdu.

***Heyvanlardan ən çox susuz qala bilən siçandır.

***Baobab ağacı odda yanmır.

***İngilis ekoloqlarının təklifilə yaxın gələcəkdə avtomobillərdə yanacağı şokoladla əvəz etmək planlaşdırılır.

***Azadqadin.az***

## UNİVERSİTETİN HİMNİ

Yüksəlirik qucağında
El(i)m bilik məbədisən
Nur tapırıq ocağında
Şərgin Qərbin qovşağında
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Hikmətim, pak niyyətim, məhəbbətim, cəsarətim,
Dəyanətim, şan-şöhrətim, milli sərvət, həqiqətim
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Tarixdən yadigar oldun,
Sən dahilər yetişdirdin
Xalqımızdan vügar oldun
Həmişə bayraqdar oldun
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Millətin nur çeşməsi
Qoy tanısın dünya səni
Müqəddəslər müqəddəsi
El(i)m, zəka xəzinəsi
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Hikmətim, pak niyyətim, məhəbbətim,cəsarətim...
Dəyanətim, şan-şöhrətim, milli sərvət, həqiqətim

BAKI DÖVLƏT UNİVERSİTETİ!

ELAN

## İNGİLİS DİLİ DƏRSLƏRİNƏ START




***Cengiz Sakmanlının 35 illik təcrübəsinə əsaslanaraq, xüsusi bir sistemlə keçirilən ingilis dili dərslərinə qeydiyyat başlayıb.***

- Bir səviyyə 2 ay davam edir

Kursu müvəffəqiyyətlə bitirənlər imtahan nəticəsində Cambrige Universitetinin təsdiqi ilə beynəlxalq sertifikat ala biləcəklər.

IELTS - TOEFL dərsləri isə Cambridge Universitetindən gələn müəllim ilə kecirilir.

**Ünvan:** Bakı şəhəri, Nəsimi rayonu M.Cəfərov küçəsi 10., metronun 20 Yanvar stansiyasının 1-ci mikrorayon çıxışından 200 metr irəlidə. 159 saylı məktəblə üzbəüz

**Əlaqə tel.:** 012 408 50 23, 050 631 55 14, 050 548 66 99

**www.thecengizhoca.com**

Dərslərin keçilmə metodu ilə www.thecengizhoca.com ünvanına daxil olub ətraflı tanış ola bilərsiniz.

*Redaktordan...*

# Tələbə adının məsuliyyəti...


Anzulə Əmirova

***Hər il olduğu kimi, bu il də minlərlə abituriyent tələbə adını qazandı. Minlərlə tələbənin ailəsində sevinc hissləri yaşandı.*** Valideynlər övladları ilə qürur duydular, keçirdikləri həyəcan, intizar artıq geridə qaldı. Müəllimlər də sevindi, onların da etimadları doğruldu, çəkdiləri zəhmət hədər getmədi. Tələbə adını qazananlarsa özlərini çox xoşbəxt hesab edirlər. Valdeynlərinin, müəllimlərinin, əzizlərinin, yaxınlarının - bir sözlə, onlardan xoş cavab gözləyənlərin ümidlərini doğrultduqları üçün sevinirlər. Bəlkə də, sevinclərinin səbəbləri sırasına fərqli mühitə düşmə, yeni-yeni dostlar, tanışlar qazanma duyğusu da daxildir. Həm də yuxusuz, gərgin gecə və gündüzlərin, stress və narahatlıqların artıq arxada qalması düşüncəsi onları fərəhləndirir. Bəli, onlar tələbə adını qazanmaq şərəfini yaşayırlar...

***Bakı Dövlət Universitetinin tələbəsi adını qazanmaq isə bir başqa duyğudur. Çünki çoxlarına nəsib olmayan, ancaq arzusunda olduğu bir məbədin üzvünə çevrilmək insana qürur verir.*** Müsəlman şərqində ilk Avropa tipli ali məktəb olan Bakı Dövlət Universiteti yetirdiyi dövlət, elm və mədəniyyət xadimləri ilə, ümumilikdə fəaliyyəti ilə dövlətin və dövlətçiliyin inkişafına birbaşa dəstək olan müqəddəs ali təhsil ocağı kimi qəbul edilir. **Düşünürəm ki, bu fikirlərimizin sübutu kimi universitetimizin məzunu olmuş ümummilli lider Heydər Əliyevin "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir" kəlamını xatırlatmaq kifayətdir.** Ulu öndər çıxışları zamanı Bakı Dövlət Universitetinin məzunu olduğunu fəxrlə ifadə etmişdir. **Prezident İlham Əliyev də universitetə çox böyük önəm verir.** BDU-nu Azərbaycanın aparıcı təhsil ocağı hesab edərək, onun xüsusi çəkisi olduğunu, bu gün universitetin inkişafının yeni mərhələsini yaşadığını, həm təhsilin keyfiyyətinin, həm də universitetin maddi-texniki bazasının möhkəmləndiyini vurğulayır. Düşünürəm ki, BDU-ya verilən bu dəyər hər birimizdə, o cümlədən yenicə universitet ailəsinin üzvünə çevrilən tələbədə qürur hissləri oyatmaqla yanaşı, məsuliyyət hissini daha da artırmalıdır.

***Universitetimizin rektoru, akademik Abel Məhərrəmov mütəmadi olaraq tələbələrlə görüşlər keçirir və bu görüşlər zamanı çox dəyərli fikirlər səsləndirir.*** Gələcəkdə peşmançılıq keçirmək istəməyən, böyük nailiyyətlərə imza atmaq niyyətində olan hər bir tələbə bu məsləhətlərdən faydalanmalıdır. Yeni dərs ili ərəfəsində akademik Abel Məhərrəmovun tələbələrlə görüşü zamanı dediyi bir fikri xatırlatmaq yerinə düşərdi. Rektor həmişə tələbələri oxumağa, öyrənməyə, elmin, biliyin faydasını dərk etməyə səsləyir. Təhsil illərinin əhəmiyyətindən bəhs edərkən o, dörd il ərzində qazanılan biliklərin qarşıdakı ən azı 60 ilin tələbatlarını, qayğılarını ödəməyə yetəcəyini söyləyir. Akademik universitetin böyük sərvətlərə malik bir məkan olduğunu bildirərək, tələbələri bilik "torbalarını" bu sərvətdən istifadə edərək nə qədər çox doldursalar, bir o qədər dəyərli həyat yaşayacaqlarına əmin edir. Məncə, bu dəyərli sözlər həyatın mənasını azca da olsa, dərk edən tələbəyə çox böyük stimul ola bilər.

***Təəssüflər olsun ki, bəzi gənclərimiz tələbə adını qazandıqdan sonra kitab-dəftərdən uzaqlaşırlar.*** Sanki onlarda bir rahatlıq, laqeydlik, səhlənkarlıq yaranır. Əslində isə bu adı, bu etimadı doğrultmaq daha böyük zəhmət tələb edir. Bu baxımdan hər bir tələbə çalışmalıdır ki, oxuduğu günlərin, ayların, illərin qədrini bilsin və bu illərdən maksimum faydalansın. Universitetin bütün imkanlarından istifadə edərək mükəmməl elm, yüksək bilik əldə etsin, təcrübə toplayaraq, hərtərəfli, kamil bir insan kimi yetişsin.

***Bakı Dövlət Universiteti hər gün inkaşaf edir, yeniləşir. Gələcəyini düşənən hər bir gənc bu inkişafa dəstək olmalı, yeniliklərdən bəhrələnməlidir.*** Universitetimizdə müntəzəm olaraq elmi-praktik konfranslar təşkil edilir, tələbələrin ölkə daxilində və ya beynəlxalq konfranslarda təmsil olunmaları üçün imkanlar yaradılır, tələbə təşkilatları, tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün bir sıra dərnəklər fəaliyyət göstərir. Bütün bunlardan yaralanmaq, istedadını, qabiliyyətini daha da inkişaf etdirmək isə tələbənin öz ixtiyarındadır.

***Yazımı akademik Abel Məhərrəmovun dəyərli bir fikri ilə tamamlamaq istərdim. Rektor həmişə istənilən vəzifədə çalışan insanları vəzifəsinin şərəfini yox, məsuliyyətini hiss etməyə səsləyir. Mən də hər bir tələbəyə qazandığı bu şərəfli adın məsuliyyətini dərk etməyi arzulayıram...***

Baş redaktor:
Anzulə ƏMİROVA

Redaksiya heyəti:
Solmaz Babaşova,
Aynur Qurbanqızı,
Tamilla Müslümova,
Salam Muxtarov,
Kəramət Böyükçöl

Redaksiyanın ünvanı:
Bakı, akad. Zahid Xəlilov küç. 23,
BDU-nun əsas binası, III mərtəbə
Tel.: 439-03-64, 439-04-78
e-mail:BU_press@bsu.az

Sifariş: 163
Tiraj: 3500

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında
ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır